## "Xarici investisiyanın qorunması haqqında", "Gömrük tarifi haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Xarici investisiyanın qorunması haqqında", "Gömrük tarifi haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 925-IIIQD nömrəli qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1. qüvvədə olan qanunvericilik aktlarının "Xarici investisiyanın qorunması haqqında", "Gömrük tarifi haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 925-IIIQD nömrəli qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
3. öz səlahiyyətləri daxilində həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 dekabr 2009-cu il
№ 650